# AMEA-da "Yaşayan Əlişir Nəvai" mövzusunda keçirilən beynəlxalq konfrans Özbəkistanın aparıcı mediasında

**Bu günlərdə AMEA-nın Rəyasət Heyətində dahi özbək şairi Əlişir Nəvainin anadan olmasının 585 illiyi münasibətilə keçirilmiş ”Yaşayan Əlişir Nəvai” mövzusunda beynəlxalq elmi konfrans Özbəkistanın aparıcı media orqanı olan ”İshonch” qəzetində və ”ishonch.uz” saytında işıqlandırılıb. Xəbərdə beynəlxalq elmi konfrans haqqında və çıxış edənlərin fikirləri yer alıb.**


Ishonch.uz

Озарбайжонда “Яшаётган Алишер Навоий” мавзусида халқаро илмий конференция ўтказилди

АМЕА — Озарбайжон Миллий Фанлар Академиясида буюк ўзбек шоири Алишер Навоий таваллудининг 585 йиллигига бағишланган “Яшаётган Алишер Навоий” мавзусида халқаро илмий конференция бўлиб ўтди.

Долзарб мавзулар

Qeyd edək ki, beynəlxalq tədbir iştirakçıları AMEA Rəyasət Heyətinin binası, eləcə də 100 il öncə Türk dünyasını ilk dəfə birləşdirən Birinci Türkoloji Qurultayın keçirildiyi Rəyasət Heyətinin Böyük akt zalı ilə tanış olublar.

Konfransı giriş sözü ilə **AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli** açaraq Əlişir Nəvainin özbək ədəbiyyatının dünya mədəniyyətinə bəxş etdiyi ən qüdrətli simalardan biri olduğunu vurğulayıb, onun ümumtürk ədəbiyyatında söz sənətinin zirvəsində dayanan korifeylər sırasında şərəfli yer tutduğunu qeyd edib.

Sonra **Özbəkistan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bəhram Aşrafxanov, Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri professor Birol Akgün, Azərbaycan-Özbəkistan Dostluq Cəmiyyətinin sədri, millət vəkili Eldar İbrahimov, millət vəkili Günay Əfəndiyeva, Özbəkistanın ”Vətəndaşlar” İctimai Fondunun İdarə Heyətinin sədri Odiljon Səttarov, özbəkistanlı alimlərdən professor Marufjon Yoldaşev, dosent Burabiya Rajabova, yazıçı Risolat Haydarova, Pekin Xarici Dillər Universitetinin Azərbaycan dili ixtisası üzrə təhsil alan tələbəsi Zhu Tianxu** çıxış ediblər.